# Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır

> *Biz yeni dövrdə siyasi dialoqu daha da dərinləşdirməliyik. Bu prosesə müharibədən əvvəl start verildi və hesab edirəm ki, qısa müddət ərzində yaxşı nəticələr əldə olundu. Demək olar ki, bütün partiyalar, – əgər biz özünü siyasi qurum adlandıran antimilli şuranı istisna etsək, bütün siyasi qüvvələr dialoqa meyil göstərmişlər, bizim təşəbbüsümüzü alqışlamışlar və artıq bu dialoq baş tutub.*
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

❒ ***Prezident İlham Əliyevin çıxış, nitq və müraciətlərindəki mündəricənin ardıcıllığını, fikirlərin bir-birini tamamlamasını dostlarımız da, bədxahlarımız da görür və lazımınca qiymətləndirirlər. Hətta Ermənistan müxalifətinin aparıcı simalarından olan bir alim yazmışdı ki, Nikol Paşinyanın mükəmməl natiq kimi tanınan İlham Əliyevlə dialoqa çıxmasının özü səhv addımdır. Yeni Azərbaycan Prezidentinin təkcə siyasi-diplomatik məharəti deyil, natiqliyi də peşəkarlıqla müşayiət olunur.***

"Mən nəyi nə zaman, necə etmək lazım olduğunu yaxşı bilirəm" – deyən dövlət başçımız nəyin, nə zaman, necə deyilməli olduğunu da yaxşı bilir. Bu arqumentlərimizi sübut etmək üçün dövlət başçımızın 2021-ci il martın 5-də -- Yeni Azərbaycan Partiyasının VII qurultayında dedikləri ilə 2020-ci il martın 10-da – VI çağırış Milli Məclisin ilk iclasında söylədiyi fikirlərin necə tamamlandığını yada salmaq kifayətdir. Ölkədə start verilmiş siyasi dialoq barədə danışan Prezident ötən ilin martında demişdi ki, siyasi sistemin təkmilləşdirilməsi işində Milli Məclisin çox böyük rolu olacaqdır və olmalıdır. Xatırlatmışdı ki, bütün siyasi qüvvələr seçkilərdə iştirak etmişlər. Beləliklə, bütün siyasi qüvvələrin iştirak etdiyi seçkilər nəticəsində çoxpartiyalı parlament formalaşıb və hesab edirəm ki, bu, demokratiyanın inkişafında önəmli addımdır: "Mənim tövsiyəm o olmuşdur ki, partiyaların nümayəndələri altıncı çağırış Milli Məclisin rəhbərliyində və komitələrin rəhbərliyində təmsil olunsunlar. Bu günə qədər belə bir hal olmamışdır. Keçən çağırış Milli Məclisin komitələrinin rəhbərliyində, parlamentin rəhbərliyində müxalifət nümayəndələri təmsil olunmurdu. Ancaq mən hesab edirəm ki, Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün buna ehtiyac var. Əlbəttə, hesab edirəm ki, Yeni Azərbaycan Partiyası ümumi maraqlar naminə bu sahədə də çox düzgün addım atır".

İndi isə Prezidentin həmin nitqindən bir il sonra dediklərinə fikir verək. Sanki sitatları eyni nitqdən seçmişik. Fikirlər səlist şəkildə bir-birini tamamlayır: "Yeni Azərbaycan Partiyasının nümayəndələrini də, üzvlərini də buna fikir verməyə çağırıram ki, bizim ölkə daxilində heç bir siyasi qurumla heç bir problemimiz yoxdur. Antimilli ünsürlərlə, əlbəttə ki, biz heç vaxt bir masa arxasında otura bilmərik, çünki onlar satqınlardır, xaindirlər. Onlar təlimatları xaricdən alırlar. Onların emissarları xarici paytaxtlarda oturublar. Oradan pul alırlar bura göndərirlər, camaatı çaşdırmaq üçün, onlar bizim şanlı Qələbəmizə kölgə salmaq istəyirlər. Onlar Paşinyanı bizə nümunə gətirirdilər, onu təmiz adam adlandırırdılar, onu demokrat adlandırırdılar. Deyirdilər ki, kaş ki, Azərbaycanda da belə bir lider olaydı. Həmin o demokrat bütün müxalifəti həbs etdirdi".

Xatırladaq ki, "Azərbaycanda siyasi dialoq yoxdur, aparılmır" – deyənlərin məqsədi ölkəmizi qarışdırmaq, ölkəmizi çökdürmək, Azərbaycan rəhbərliyini hörmətdən salmaq, çirkin uydurmalar, iftiralar, yalançı məqalələr yazdırmaq idi. Bunların hamısı bizim gözümüzün qabağında baş verib. İstəyirdilər ki, başımız daxili çəkişmələrə, əsassız ittihamları yalanlamağa qarışsın ki, əsas vəzifədən bizi çəkindirsinlər və beləliklə də, işğal edilmiş torpaqlar ermənilərin əlində əbədi qalsın. Çox təəssüf ki, bu gün antimilli şurada cəmləşən milli satqınlar da həmin məqsədi güdür. Onlar şanlı Ordumuzun Qələbəsinə kölgə salmağa çalışırlar. Nəticədə nə oldu? Azərbaycan rəhbərliyi həm ölkədəki digər siyasi qurumlarla əməkdaşlıq etməyə başladı, həm də öz torpaqlarının işğaldan azad edilməsinə nail oldu.

*(ardı 2-ci səhifədə)*

Xalq qəzeti 2021.- 10 mart.- S.1;2.

# Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır

*(əvvəli 1-ci səhifədə)*

Həm beynəlxalq aləmdəki, həm də ölkə daxilindəki bədxahlarımızın başına daş salan əsas məqamlardan biri də Yeni Azərbaycan Partiyasının VII qurultayının gündəliyində siyasi dialoqun nəticəsini göstərən məsələnin olması idi. Məlum olduğu kimi, qurultaydan əvvəl ölkənin 6 siyasi partiyası Yeni Azərbaycan Partiyasına qoşulmaq üçün müraciət etmişdi. Xatırladıldı ki, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Heydər Əliyev siyasətinin uğurlar qazanması, dövlətimizin gücünün, qüdrətinin, iqtisadi gücünün artması, eyni zamanda, 44 günlük Vətən müharibəsi nəticəsində 30 il işğal altında qalan Azərbaycan torpaqlarının azad edilməsi və Azərbaycanın dünyada nüfuzunun artması və digər amillər bir çox siyasi partiyalar tərəfindən də İlham Əliyev siyasətinin birmənalı şəkildə dəstəklənməsi ilə nəticələnib. Yəni, ölkəmizdəki milli birlik və həmrəyliyin təmin olunmasında Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların mütləq əksəriyyətinin birmənalı şəkildə müsbət rol oynaması, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləməsi aparılan siyasi dialoqun bariz ifadəsidir.

Beləliklə, YAP-ın VII qurultayı Azərbaycan Xalq Demokratik Partiyası, Azərbaycan Kəndli Partiyası, Milli Qurtuluş Partiyası, Azərbaycan Yurddaş Partiyası, Azərbaycan Milli Hərəkat Partiyası və Azərbaycan Demokrat Sahibkarlar Partiyasının hakim partiyaya birləşməsi ilə yadda qaldı.

Partiya sədrinin müavini Əli Əhmədov qurultayda qeyd etdi ki, Yeni Azərbaycan Partiyasına qoşulmaq haqqında qərar verən partiyaların rəhbərləri YAP rəhbərliyinə müraciət ediblər və YAP sədrinin tövsiyəsi əsasında həmin məsələ partiyanın VII qurultayının müzakirəsinə çıxarılıb.

Dövlət başçımız, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə adlandırdı. Dövlət başçısı əlavə etdi ki, Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Çünki bu partiyanın böyük ənənələri var. Prezident əmin olduğunu bildirdi ki, partiya yeniləşmiş formatda, o cümlədən rəhbər orqanlarında təmsil olunan namizədləri nəzərə alsaq, daha fəal olacaq, ölkə qarşısında duran problemləri uğurla icra edəcəkdir: “Həyat dəyişir, zəmanə dəyişir. Bir daha demək istəyirəm ki, biz ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etməliyik, o cümlədən siyasi islahatlar sahəsində. Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın. Mən buna şübhə etmirəm. Bizim dost partiyalarımızın bu gün partiyamıza qoşulması da bunu göstərir. Bu da çox önəmli, əlamətdar hadisədir. Bu da siyasi sistemimizin təkmilləşdirilməsi istiqamətində atılan növbəti addımdır və eyni zamanda, göstərir ki, partiyamızın həm məramı, həm proqramı, fəaliyyəti və əldə etdiyi nailiyyətlər dost partiyalar üçün də cəlbedicidir. Əminəm ki, bir neçə partiyanın Yeni Azərbaycan Partiyası ilə birləşməsi partiyamızı gücləndirəcək”.

Daha maraqlı olan məqamlardan biri də odur ki, YAP-a qoşulan 6 siyasi partiyanın rəhbərləri və ya təmsilçiləri də partiyanın fəaliyyətində iştirak etdikləri kimi, onun yeni proqramının hazırlanmasında da iştirak edəcəklər. Partiya sədrinin bu istiqamətdə olan tapşırığı daha konkretdir: “Bu proqram yeni dövrlə bağlı bütün məsələləri özündə ehtiva etməlidir. İdarə heyətinə tapşırıq verirəm ki, 3 ay ərzində partiyamızın yeni proqramı hazırlansın və təqdim edilsin”.

Fikirlərimizi dövlət başçımızın ötənilki nitqində səsləndirdiyi yeni konfiqurasiya məsələsi ilə tamamlamaq istəyirik: “Bir partiya – hakim partiya təkbaşına siyasi dialoq apara bilməz. Çünki dialoq üçün tərəfmüqabillər lazımdır və ilkin təəssürat müsbətdir. Bu təşəbbüs heç bir şərt qoymadan həyata keçirilir. Ancaq yenə də marginallaşmış və bütün dayaqlarını tam itirmiş dərnək tipli qruplaşma bu görüşdən imtina etdi. İmtina edib, indi özü bilər. Hər halda, uduzan biz olmayacağıq. Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır”.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***